Azərbaycan.- 2021.- 28 aprel. S. 7.



# Zəngilan-Horadiz yolunun strateji əhəmiyyəti var

Sonra Prezident İlham Əliyev Zəngilan-Horadiz avtomobil yolunun təməlini qoydu.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə dövlət başçısının tapşırığı ilə artıq bir neçə yol layihəsinin icrasına başlanılıb və uğurla davam etdirilir. Bu layihələr işğaldan azad edilmiş rayon və kəndlərin sosial-iqtisadi inkişafında çox mühüm rol oynayacaq. Bu baxımdan Zəngilan-Horadiz avtomobil yolu da strateji əhəmiyyəti ilə seçilir. Yolun ümumi uzunluğu 124 kilometrdir və 6 zolaqdan ibarət olacaq.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:**

- Zəngilan rayonunun təbiəti çox gözəldir. Yaşıl dağlar, meşələr, çaylar. Cənnət kimi bir yerdir. Zəngilanı biz cənnətə çevirəcəyik. Adam baxdıqca baxmaq istəyir. Hər tərəf yaşıllıq. Gözəl təbiət. Baxın, gözəl çay.

**Birinci xanım Mehriban ƏLİYEVA:**

- Hansı çaydır bu?

**Prezident İlham ƏLİYEV:**

- Oxçu çayı olmalıdır. Oxçu çay, Bəsit çay. Onu biz dəqiqləşdirərik. Burada çox güman ki, yarımstansiya inşa edilir. Polis məntəqəsi. Toxunulmamış təbiətdir. Gözəl mənzərə açılır. Əsas məsələ odur ki, şəhərlər, kəndlər bərpa olunarkən bu təbiətə toxunulmasın. Çox ciddi nəzarət olmalıdır ki, bizim təbiətimizə ziyan vurulmasın. Baxmayaraq ki, ermənilər bizim təbiətimizə də qəsd etdilər. 54 min hektar meşə zolaqlarını məhv etdilər. Kəsib aparıb satdılar. Amma biz bütün meşələri bərpa edəcəyik.

**Birinci xanım Mehriban ƏLİYEVA:**

- Bu, çinar ağaclarıdır?

**Prezident İlham ƏLİYEV:**

- Bəli, çinar ağacıdır. Bu isə Bəsitçaydır. Zəngilanın gözəl təbiətinin bir hissəsi. Bəsitçay və qədim çinar ağacı. Gözəl Azərbaycanın gözəl təbiəti. Bu torpaqları biz qaytarmışıq, düşmənin əlindən almışıq. Bundan sonra Azərbaycan xalqı əbədi bu torpaqlarda yaşayacaq. Qarabağ Azərbaycandır!